AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# ÖMƏR FAİQ NEMANZADƏNİN PEDAQOJİ GÖRÜŞLƏRİ

İxtisas: 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi
Elm sahəsi: Pedaqogika

İddiaçı: Kubra Ramiz qızı Quliyeva

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan - 2025**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Vahid Məmməd oğlu Rzayev**

Rəsmi opponentlər: Pedaqoji elmlər doktoru, professor

**Rüfət Lətif oğlu Hüseynzadə**

Pedaqoji elmlər doktoru, professor

**Hümeyir Hüseyn oğlu Əhmədov**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Lalə Zahir qızı Allahverdiyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitutunun nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Pedaqoji elmlər doktoru, professor
**İsmayıl İsrafil oğlu Əliyev**

Dissertasiya şurasının elmi katibi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Qızıltac Tarverdi qızı Şahbazova**

Elmi seminarın sədri: Pedaqoji elmlər doktoru, professor
**Ləzifə Nağı qızı Qasımova**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan xalqının təhsil mədəniyyəti və pedaqoji fikrinin formalaşması və inkişafı maarifçiliklə sıx bağlıdır. Xalqımızın XIX əsr və 20-ci əsrin əvvəllərindəki tarixi bir sıra görkəmli elm, maarif və mədəniyyət xadimlərinin adı və mübarizələrlə dolu həyat yolu ilə şərəflənmiş, məşhur olmuşdur. Onların arasında Mirzə Kazım bəy, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Məlikov, Seyid Əzim Şirvani, Rəşid bəy Əfəndiyev, Firudin bəy Köçərli, Mustafa bəy Topçubaşov, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Nəriman Nərimanov, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov, Hüseyn Cavid kimi böyük şəxsiyyətlər var ki, *"onların mədəni təcrübələri, cəhalətə qarşı mübarizələri, ideyaları ədəbi-bədii və fəlsəfi əsərlərində əksini tapırdı"*[1].

Dövrünün tanınmış maarifçisi, demokratizm və humanizm ideyalarının təbliğatçısı, fəlsəfi, sosial, jurnalistik fəaliyyəti, təhsil mədəniyyəti ilə sayılıb seçilən Ö.F.Nemanzadə də bu ziyalı dəstəsinin nümayəndələrindən biri idi. Onun yaradıcılığı və əməli fəaliyyəti milli oyanış, zamana uyğun düşüncə tərzi, bir millət kimi özünü mühafizə çağırışları ictimai-mədəni fikir tariximizin qiymətli səhifələridir. Ö.F.Nemanzadə də digər maarifçilər kimi millətin mənəvi diriliyinin inkişaf yollarını müəyyən edə bilir və bu işdə əsl fədakarlıq, dözüm nümayiş etdirirdi. O, xalqın tərəqqi, inkişaf yolunun hansı istiqamətdə olmasını və digər xalqların mədəni nailiyyətləri ilə təmas nöqtəsini düzgün müəyyənləşdirirdi. Böyük maarifçi dönə-dönə göstərirdi ki, bu ideyaları həyata keçirməyin doğru yolu, yeganə vasitəsi milli məktəblərin açılması və pedaqoji fikrin inkişaf etdirilməsi ilə mümkündür.

[1] Behbudov, S. Azərbaycan maarifçiliyinin dini dəyərləri və müasirlik // Sumqayıt: Sumqayıt Dövlət Universitetinin metafizika jurnalı, – 2021. №4, – s. 163-171.

Ö.F.Nemanzadə milli mətbuatın inkişafı, ictimai həyatın canlanması, mədəni və pedaqoji mühitin yeniləşməsi, məktəb təhsilində təlim və tədrisin ana dilində aparılması ideyasının və digər məsələlərin həlli yolunda cəsarət və hünər göstərməklə dövrün ziyalı elitasının təmsilçilərindən biri kimi tanınırdı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev görkəmli maarifçi, publisist, ictimai xadim Ö.F.Nemanzadənin anadan olmasının 150 illiyinin qeyd olunması haqqında Sərəncamında onun fəaliyyətini azərbaycançılıq ideologiyasına xidmət nümunəsi kimi qiymətləndirərək söyləyir:

*"Ömər Faiq Nemanzadə XX əsrin əvvəllərində Azərbaycan mətbuatı tarixinə parlaq səhifələr yazmış və son dərəcə mürəkkəb şəraitdə onun inkişafına istiqamət verərək keyfiyyətcə yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış maarifpərvər ziyalılardandır. Ədəbi-mədəni həyatda mühüm hadisəyə çevrilmiş "Qeyrət" mətbəəsinin və Yaxın Şərq ölkələri ədəbiyyatında demokratik meyillərin güclənməsinə qüvvətli təsir göstərmiş məşhur "Molla Nəsrəddin" jurnalının yaradılması ədibin gərgin və səmərəli fəaliyyətinin ayrılmaz tərkib hissələridir. Ana dilinə sevgini vətənə məhəbbətin ən vacib şərti sayan geniş erudisiyalı, fədakar qələm sahibi doğma xalqının mədəni dirçəlişi, istiqlalı və xoşbəxt gələcəyi naminə bilik və bacarığını əsirgəmədən əzmlə mübarizə aparmışdır. Ümumxalq əhəmiyyəti daşıyan bütün taleyüklü məsələlərin zamanın qabaqcıl ideyaları fonunda daim azərbaycançılıq məfkurəsi cəbhəsindən işıqlandırılması Ömər Faiq Nemanzadənin milli ideyalarla zəngin və dərin siyasi-ictimai məzmuna malik publisistik irsinin başlıca leytmotivini təşkil etmişdir"*[2].

XIX-XX əsr maarifçiləri hər zaman doğma ana dilində danışmağın üstünlüklərini açıb göstərməyə çalışmış, xalqı işıqlığa, cəhalətdən uzaq bir həyata çıxarmaq istəmişlər. Dövrün demokratik qüvvələri xalqı milli özünüdərk, milli oyanışa səsləmişlər.

---

[2] Əliyev, İ. Ömər Faiq Nemanzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan. – 2022, 4 oktyabr. – s.2.

Milli özünüdərk dedikdə ümumən millətin, xalqın öz tarixi kökləri, mədəniyyəti, özünəməxsus dəyərlərə malik olması, milli və ümumbəşəri ideallar əsasında özünü təsdiq etməsi, müasir dövrdə xalqlar arasında tutduğu yeri, mövqeyi və gələcək inkişaf yollarını təyin edə bilməsi, vətən, doğma torpaq üçün qürurla danışması, fəxr etməsi və hər zaman onun üçün mübarizəyə hazır olması nəzərdə tutulur, əsas göstərici hesab olunurdu. Bunun nəticəsidir ki, Ö.F.Nemanzadə kimi maarifçilər milli özündərk şüarını əsas götürmüşlər. Dövrün görkəmli ziyalılarının belə bir zəngin məzmuna malik baxışları sonrakı dövrlərdə yeni çalarlar qazanmış, müstəqillik dövrünün, azərbaycançılıq ideyasının tərkib hissəsi olmuşdur.

Ö.F.Nemanzadənin təhsil, məktəb haqqında fikir və mülahizələri, ümumən dövrün ictimai-pedaqoji mühitinə aid baxışları demək olar ki, öyrənilməmişdir. Onun təhsili, məktəbi xalqın dini-etnik xüsusiyyətləri və psixologiyasından irəli gələn münasibətlər kimi qiymətləndirməsi indiki dövrdə tədqiqatçı alimlərin problemin həlli istiqamətində müşahidələrinin həqiqiliyinə, təhlillərinin doğru olmasına, nəticələrinin elmiliyinə zəmin yaradar. Problemin öyrənilməsi istiqamətində görülən işlər içərisində sosial-fəlsəfi, ədəbi, dilçilik və mətbuat tarixi ilə bağlı araşdırmalar ədəbi-elmi fikrin Ö.F.Nemanzadə yaradıcılığına necə bir önəm verdiyini işıqlandırmaq baxımından xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanın xalq şairi, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Bəxtiyar Vahabzadə, professorlardan Abbas Zamanov, Şamil Qurbanov, Firudin Hüseynov, tədqiqatçı-alimlərdən Qalibə Hacıyeva, İradə Musayeva və başqaları görkəmli maarifçinin yaradıcılığının bir sıra aspektlərini tədqiq etmişlər[3].

---

[3] Bax: Vahabzadə. B. Ömər Faiq Nemanzadə haqqında // B.Vahabzadə. Bakı: Yazıçı, – 1986, – s. 50.Vahabzadə. B. Yanar ürək // Ədəbiyyat və incəsənət. – 1983, 11 noyabr. – s. 3; Zamanov. A. Ömər Faiq Nemanzadə // Əməl dostları. – 1979, – s. 193-202; Qurbanov, Ş. Ö.F.Nemanzadə seçilmiş əsərləri / Ş.Qurbanov. – Bakı: Azərbaycan SSR “Bilik” Cəmiyyəti, – 1992, – 48 s; Qurbanov, Ş. Ö.F.Nemanzadə seçilmiş əsərləri / Ş.Qurbanov. – Bakı: Gənclik, – 1992, – 208 s; Hüseynov, F. Molla Nəsrəddin və Molla Nəsrəddinçilər / F.Hüseynov. – Bakı: Yazıçı, – 1986, – 278 s; Hacıyeva, Q. Ömər Faiq Nemanzadənin əsərlərində dil və dilçilik məsələləri / Q. Hacıyeva. – Bakı: Nurlan, – 2007, – 32 s; Musayeva, İ. Hər

Ö.F.Nemanzadənin ədəbi-publisistik yaradıcılığı bir neçə dissertasiya tədqiqatının da predmet sahəsi kimi işlənmişdir. S.M.Rzayevin "Ömər Faiq Nemanzadənin dünyagörüşü", Cəfər Mustafayevin "Kafkasya türklerinden Ömer Faik Numanzade'nin hayatı və faaliyetleri (1872–1937)" bu növ tədqiqatlardır[4]. Lakin Ö.F.Nemanzadənin təhsil, məktəb haqqında fikir və mülahizələri, ümumən dövrün ictimai-pedaqoji mühitinə aid baxışları demək olar ki, öyrənilməmişdir.

Görkəmli ziyalının əziz xatirəsi əbədiləşdirilmiş, hər zaman diqqət mərkəzində saxlanılmışdır. Maarifçinin həyat və yaradıcılığı, məqalə və felyetonları üçün məlumat bazası yaradılmışdır. Məlumat bazası hal-hazırda aktivdir. "Bioqrafiya", "Əsərlər", "Biblioqrafiya, "Akademik tədqiqat və məqalələr" adlı başlıqlarda maarifçi haqqında hərtərəfli, geniş məlumatlar öz əksini tapıb[5].

Ö.F.Nemanzadə xalq, millət və gənclərin gələcəyinin işıqlı, parlaq olması üçün çalışmışdır. Onun təhsil, məktəb və pedaqoji nəzəriyyənin ən yeni nailiyyətlərinə əsaslanan orijinal fikirləri, dövrü üçün də, sonrakı zamanlar üçün də əhəmiyyətli düşüncə məhsuludur.

Bu baxımdan Ö.F.Nemanzadə irsinin pedaqoji aspektinin öyrənilməsi, sistemli və əhatəli tədqiqi, problemlə bağlı yeni məlumatların əldə edilməsi bütövlükdə, bu böyük xəzinənin verdiyi faydanın üzə çıxarılması günümüzün aktuallaşdırdığı məsələdir. Deyilənlərə əsaslanaraq Ö.F.Nemanzadənin pedaqoji görüşlərini dissertasiya tədqiqatı səviyyəsində araşdırmağı vacib bildik.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda məktəb və pedaqoji fikir tarixidir.

---

millət mərifət ilə yaşar cəhalət ilə məhv olar: [Elektron resurs] / 525-ci qəzet. – Yanvar 18, 2023. URL: https://525.az/news/211242-her-millet-merifet-ile-yasar-cehalet-ile-yox-olar--irade-musayeva-ii-meqale

[4] Bax: Rzayev. S.M. Ömər Faiq Nemanzadənin dünyagörüşü: / pedaqogika üzrə fəlsəfə doktoru dis. / – Bakı, 1971. – 282 s; Mustafayev. C. Kafkasya türklerinden Ömer Faik Numanzadenin hayatı ve faaliyetleri (1872-1937): / Yüksek lisans tezi. / – İstanbul, 2019. – 152 s.

[5] Nemanzadə, Ö.F: [Elektron resurs] / URL: https://omarfaig.info

**Tədqiqatın predmeti.** Tədqiqatın predmetini Ö.F. Nemanzadənin pedaqoji görüşləri və fəaliyyəti təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi Ö.F. Nemanzadənin Azərbaycanda elmin, təhsilin və pedaqoji fikrin inkişafına verdiyi tövhəni müəyyən etmək və ondan müasir şəraitdə istifadə imkanlarını aşkarlamaqdan ibarətdir.

Tədqiqatın məqsədinə, obyektinə və predmetinə uyğun olaraq aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- Azərbaycan maarifçilərinin təhsil—pedaqoji baxışlarının formalaşmasında sosial- mədəni amilləri müəyyən etmək və bəhs olunan dövrdə məktəblərin, pedaqoji fikrin inkişaf meyllərini müəyyənləşdirmək;
- Ö.F.Nemanzadənin dövrünün qabaqcıl ideyalarını əks etdirən pedaqoji fikirlərini, təhsil haqqında baxışlarını müəyyən etmək və onların elmi təhlilini vermək;
- Ana dilinin tədrisi, təmizliyi və ümumişlək olması, milli mətbuatın inkişafı yolunda Ö.F.Nemanzadənin mübarizə əzmini, xidmətlərini üzə çıxarmaq;
- Ö.F.Nemanzadənin qadın azadlığı, təhsili və tərbiyəsi işində ailə münasibətlərinin təsir səviyyəsinin necə bir əhəmiyyətə malik olduğuna aid fikirlərini aşkara çıxarmaq;
- Görkəmli maarifçinin təhsilin məzmununun yeniləşdirilməsi və təlim-tərbiyə işində yeni üsul və vasitələrdən istifadə olunması ilə bağlı fikirlərini təhlil edib müasir şəraitlə səsləşən cəhətləri müəyyən etmək, müqayisələr aparmaq.

**Tədqiqatın metodları.** Dissertasiyada Ömər Faiq Nemanzadənin pedaqoji görüşlərinin öyrənilməsi prosesində tədqiqatın məqsəd və vəzifələrinə uyğun olaraq tarixi-müqayisəli, problemli-xronoloji, təhlil, tərkib, sənədlərin təhlili kimi metodlardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Ö.F.Nemanzadənin mütərəqqi-demokratik dünyagörüşünün formalaşması və inkişafını, mütərəqqi pedaqoji ideyalara yiyələnməsini XX əsrin əvvəllərində Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni inkişafının xüsusiyyətləri şərtləndirmişdir.

- Ö.F.Nemanzadənin pedaqoji görüşləri və təhsil haqqında fikirlərinin demokratik əsasda inkişafı Azərbaycanın ümumbəşəri və milli dəyərləri müdafiə edən qabaqcıl mütəfəkkirləri ilə qarşılıqlı-əlaqəli fəaliyyəti təsir amilidir.

- Ö.F.Nemanzadəyə görə elm və təhsil sahəsində bəşəriyyətin mənəvi və praktiki təcrübəsinin formalarını mənimsəməklə şəxsiyyətin yaradıcı inkişafını əhatə edən özünü təkmilləşdirməyə çatmaq mümkündür.

- Ö.F.Nemanzadə ümumi pedaqoji və didaktik baxışlarının mütərəqqi xarakteri, onların xalqın mənəvi istəklərinə uyğunluğu və nəhayət Azərbaycan xalqının gələcəyinə inamı ilə yeni pedaqoji ideyaların formalaşması və tətbiqinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

- Ö.F.Nemanzadənin qənaətincə ana dili məktəblərinin yaradılması, Azərbaycan dilinin tədrisi, bu dildə dərslik və vəsaitlərin hazırlanması, təhsilin məqsəd və vəzifələrinin humanist xarakteri, onun ümumbəşəri və milli dəyərlər əsasında qurulması, məktəblilərin ana dilini mənimsəməsi onların hərtərəfli inkişafının və şəxsiyyət kimi formalaşmasının təminatçısıdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, Ö.F.Nemanzadənin XX əsrin əvvəllərinə aid bütün əsərlərində təhsilin və pedaqoji fikrin inkişafı kompleks və sistemli şəkildə öyrənilir. Görkəmli maarifçinin təhsilə və pedaqoji fikrə aid görüşləri təhlil edilir, əsərlərində araşdırılan təhsil, təlim-tərbiyə hadisələri ümumiləşdirilərək sistemləşdirilir, onun ana dilinin tədrisi, yeni məktəb haqqında fikirləri, qadın təhsilinin inkişafı ilə bağlı baxışları və pedaqoji elmin inkişafındakı xidmətləri açıqlanır. Ö.F.Nemanzadənin yaradıcılığındakı elmi əhəmiyyətə malik təlim-tərbiyə ilə bağlı görüşləri zəmanəsinin təhsil mənzərəsininin tərkib hissəsi kimi təhlil olunur, əvvəlki elmi araşdırmalar öyrənilir, müsbət ənənələr gözlənilir, aparılan təhlillərin xronoloji ardıcıllığı qorunur. Ö.F.Nemanzadənin yaradıcılığında təhsil və pedaqoji dəyərlər tam və əsaslı şəkildə tədqiq olunur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, Ö.F.Nemanzadənin dünyəvi təhsil və

yeni pedaqoji ideyaların yayılması və inkişafı haqqında fikirləri öyrənilmiş, elmi-pedaqoji tərcümeyi-halının mərhələləri tədqiq edilmiş və sistemləşdirilmişdir. Görkəmli maarifçinin pedaqoji baxışları təhlil edilərək demokratik və humanist yönümlü məktəb və cəmiyyətin problemlərinə dair fikirləri aşkara çıxarılmış, dövrünün pedaqoji ideyalarına münasibəti təhlil edilmişdir. Dövrünün ictimai-pedaqoji fikrinin görkəmli nümayədələrindən biri kimi Azərbaycan xalqının məktəb və pedaqoji fikrinin inkişafına verdiyi tövhələr faktik materiallar əsasında təsdiq edilmişdir.

Müəllifin dissertasiyada yer alan nəzəri prinsip və qənaətlərindən pedaqogika tarixi üzrə dərsliklərin və dərs vəsaitlərinin yazılması zamanı istifadə oluna bilər. Müəllif tərəfindən toplanmış faktiki materiallar müasir milli məktəbdə tədris prosesində, pedaqoji kadrların hazırlanması prosesində istifadə oluna bilər. Tədqiqatın nəticələri Azərbaycan pedaqoji fikrinin və təhsilinin inkişafı haqqında elmi fikirləri genişləndirər və universitetlərin pedaqoji fakültələrində "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" kursunun tədrisi işində fayda verər. Tədqiqatdan irəli gələn yaradıcı fikirlər, elmi ideyalar gənc tədqiqatçılar üçün stimul rolu oynayacaq və nəzəri, eləcə də praktik cəhətdən yaradıcı, peşəkar fəaliyyətin artmasına köməklik göstərəcəkdir.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Təqdim olunan dissertasiyanın əsas məzmunu və alınan nəticələr bir sıra respublika və beynəlxalq səviyyəli konfranslarda və simpoziumlarda müzakirə edilmiş və elmi məqalələr şəklində Ali Attestasiya Komissiyasının tövsiyyə etdiyi bir sıra nüfuzlu yerli və əcnəbi jurnallarda çap edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Giriş hissə 11658 işarə, 6 səhifə, I fəsil 91200 işarə, 45 səhifə, II fəsil 121360 işarə, 62 səhifə, nəticə 5664

işarə, 4 səhifə, istifadə edilmiş ədəbiyyat siyahısı 13648 işarə, 9 səhifədir. Ümumi həcmi 128 səhifə, 245367 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsədi və vəzifələri müəyyənləşdirilir, nəzəri və praktik əhəmiyyəti göstərilir, işin aprobasiyası və dissertasiyanın həcmi haqqında məlumat verilir.

Dissertasiyanın **"Ömər Faiq Nemanzadə yaradıcılığında maarifçi görüşlər və tərbiyəvi fikirlər"** adlı birinci fəslin ilk paraqrafında **"Ö.F.Nemanzadə yaradıcılığında xalqın həyat tərzi və vaxtı ötmüş adət-ənənələrin tənqidi"** araşdırılır.

Əsaslandırılır ki, XIX-XX əsrlərdə yaşayıb, xalqı, vətəni üçün çalışan, öz yaradıcılıq fəaliyyəti ilə iz qoyan görkəmli şəxsiyyətlərin milli məktəblərin açılmasında, pedaqoji elmin bütün sahələrinin sürətlə inkişafında, xalqın ictimai və milli şüurun oyanmasında, milli mətbuatın formalaşmasında xidmətləri əvəzedilməzdir. Bu görkəmli şəxsiyyətlərin içərisində Axundovların, Cəlillərin, Tağızadələrin, Sabirlərin, Nəzmilərin, Ömərlərin və s. kimi şəxslərin adını xüsusilə vurğulamaq gərəklidir. Onların tərcümeyi-halları, qələmə aldıqları yazıları ideyalarının öyrənilməsində mühüm rol oynayır. Adları çəkilən görkəmli şəxsiyyətlər, qəhrəmanlar içərisində Ö.F.Nemanzadə də fərqlənən ziyalılardan biri olmuşdur. Maarifpərvər ziyalı bütün yaradıcılığında dövrün problemlərini qələmə almışdır.

Maarifçinin yaradıcılıq fəaliyyətinə xalqı azadlığa səsləmək və milli oyanış ideallarını yaymaq, milli məktəb və təhsilin məzmununu yeniləşdirmək yeniliklərə getmək, doğma ana dilində mətbuat orqanlarının fəaliyyət göstərməsinə köməklik göstərmək, mövhumatçılığı kəskin tənqid etmək, xalqı cəhalətdən xilasa səsləmək, qadınların təhsilə cəlb olunmasını ön planda tutmaq və s. kimi problemlər daxil idi.

Mövhumatçılıq, vaxtı ötmüş adət və ənənələrin, cəhalətin tənqidi görkəmli ziyalının yaradıcılığının əsasını təşkil etmişdir. O, vaxtı ötmüş adət-ənənələrdən, xurafatçılıqdan xalqı uzaqlaşdırmağa çalışmış, əxlaq və mənəviyyat uğrunda bəylərə, xanlara, din xadimlərinə qarşı kəskin çıxışlar etmiş, mübarizələr aparmışdır. Çıxış yolunu işıqlığa doğru yönəlməklə cəhalətin bütün əks təsirlərindən uzaqlaşmaqda görürdü[6].

Aydındır ki, o dövrdə bir çox məsələlər sadəcə dini ehkamlar üzərindən məhdudlaşdırılırdı. Buna görə də Ö.F.Nemanzadə xalqın geri qalmağının səbəbini mövhumatçı düşüncədə görür, vaxtı ötmüş adət-ənənələrlə əlaqələndirir və bu kimi halların aradan qaldırılması üçün müxtəlif yollar axtarırdı. Ö.F.Nemanzadə istər yaradıcılığında, istərsə də təhsil aldığı, dərs dediyi müddətdə dinə, mövhumatçılığa qarşı olan münasibətini hər zaman kəskin şəkildə ortaya qoymuşdur. Ziyalının yazılarında, qələmə aldığı bir çox əsərlərində dini düşüncə və inanclar, vaxtı ötmüş adət-ənənələr, geriləmək, parlaq, işıqlı gələcəyi görə bilməmək və s kimi məsələlər ön planda idi. Maarifçi yazırdı ki, bütün həyatını xalqın inkişafı naminə heç kimdən çəkinmədən, yorulmaq bilmədən davam etdirmişdir, lakin *"bu mübarizə ilə dolu yol nə qədər ali, işıqlı idisə, bir o qədər də ziyalının şəxsi həyatına uğursuz, acı təsirləri var idi"*[7].

Elm öyrənmək, zamanın əsl məqsədini, maarifin mənəvi qüvvətini başa düşmək o dövrdə asan məsələ deyildi. Maarifçi Azərbaycanın bir çox şəhər və kəndlərində olmuş, bir sıra çətinliklərə baxmayaraq öz elm işığını yaymağa çalışmışdır. Xüsusilə Şəkidə olduğu müddətdə dəfələrlə yerli əhalinin mövhumatçılıq, vaxtı ötmüş adət-ənənələrə aid olan fikirlərinə öz etirazını bildirmişdir. Camaatın pirlərə, mollalara bir ümid ocağı, çıxış yolu kimi baxmalarına qarşı çıxmışdır. O, həmçinin vaxtı ötmüş, xalqı

---

[6] Quliyeva, K.R. Ö.F.Nemanzadə mövhumatçılığın tənqidi haqqında / K.R.Quliyeva, E.Q.İsmayılova // Naxçıvan: Naxçıvan Dövlət Universiteti, Elmi Əsərlər: Humanitar elmlər seriyası, – 2022. c.114, №1, – s. 93-96.

[7] Səfərov, R. "Dünyəvi əqidələrin birincisi millətpərvərlik əqidəsidir" / R.Səfərov – Bakı: "Kaspi" – maarifçilik meydanı", – 2016. – 652 s.

cəhalətə sürükləyən adət-ənənələrə də mübarizə aparmağı zəruri hesab edirdi.

Ölkəmizdə də ta qədim zamanlardan yaranan və günümüzdə də davam etdirilən bir çox adət-ənənələr vardır. Bu adət-ənənələrdən birincisini xalq və onun mənəviyyatını zənginləşdirən, insanlarda birlik və bərabərlik hissini aşılayan adət-ənənələr kimi, ikincisini isə insanlara heç bir fayda etməyən, zərərli adət-ənənələr kimi qruplaşdıra bilərik. Ö.F.Nemanzadə insanlara faydalı olacaq adət-ənənələrin öyrənilməsi və onların mənəvi dəyərlər sistemindəki rolunun, əhəmiyyətinin vacibliyindən yazırdı. Fədakar maarifçi "Novruz bayramı" kimi köhnədən qalan milli bayramımızın uzun illərdə davam etdirilməsi qənaətində idi.

Görkəmli ədib yaradıcılıq missiyasını əsl vətənpərvər məsuliyyəti ilə yerinə yetirmişdi. Azərbaycan xalqının dəyərlər sistemini yaradıcılığında incə çizgi kimi işləmişdir. Onun əsas məqsədi insanları qəflət yuxusundan oyatmaq, işıqlığa doğru yol almalarına səsləmək idi. Ziyalının əsərlərində dini fanatizm, mövhumatçılıq, vaxtı ötmüş adət-ənənələr kəskin tənqid olunmuşdur. Müəllifin "Qəbirdən xortlayan adam", "Ağacı qurd içindən yeyər" "Ətiqə", "Mən kiməm", "Sirkə", "Qayırma hədislər" və s. kimi əsərlərində cahillik, elmsizlik, xalqın qəflət yuxusunda olması, vaxtı ötmüş adət-ənənələr tənqid olunur.

Ö.F.Nemanzadənin xalqın inkişafı, hərtərəfli formalaşması baxımından söylədiyi bir çox məsələlər, fikirlər günümüz üçün aktualdır. Cəhalətlə dolu bir həyat bəlaların başında gəlir. Bunu aradan qaldırmaq üçün ağıldan istifadə edərək daha çox elmlə işləmək lazımdır. Bu sahədəki yenilikləri yaxından izləmək, tərəqqi və inkişaf etdirmək gərəklidir. Maarifçinin görmək istədiyi ictimai həyat elmli, inkişafa doğru addımlayan mühit olmalı idi. O, öz elmi ilə qaranlıq fikirləri işıqlandıra bilirdi.

Fəslin ikinci paraqrafında **"Ö.F.Nemanzadə xalqın milli oyanış hərəkatının ideya müəlliflərindən biri kimi"** araşdırılır.

Qeyd olunur ki, milli oyanış, milli özünüdərk, xalqın öz mənliyini, kimliyini tanıması yolunda addımlar atan, maarifçilik hərəkatının başlıca ideya müəlliflərindən olan görkəmli

şəxsiyyətlərdən biri kimi Ö.F.Nemanzadənin adını xüsusi vurğulamaq lazımdır. Maarifçi xalqın görən gözünə, düşünən beyninə zərərli fikirlərin yerləşdirilməsindən ehtiyatlanır, bunun üçün yorulmadan fəaliyyət göstərirdi.

Ö.F.Nemanzadə xalqın milli oyanışı, ölkənin sürətlə inkişafının əsasını məhz mükəmməl mətbəələrin açılmasında, nəşr olunan sayısız kitablarda görürdü[8]. O, bir çox mətbuat orqanlarında fəaliyyət göstərmiş, mətbəəçilik və redaktorluqla məşğul olmuşdur. Maarifpərvər ziyalı əməkdaşlıq etdiyi mətbuat orqanlarında məqalə və felyetonlarını dərc etdirmişdir. Müəllifin əməkdaşlıq etdiyi mətbuat orqanlarından "Qeyrət" mətbəəsi, qəzet və jurnallarına "Molla Nəsrəddin" jurnalını, "İrşad", "Tərəqqi", "Açıq söz", "Şərqi-rus", "Azərbaycan" qəzetlərini və s. qeyd edə bilərik. Maarifçinin bu qəzet və jurnallarda əsas fəaliyyət istiqamətini xalqa olan zülmləri, nadanlıqları, haqsızlıqları qələmə alması təşkil edirdi. Səsini xalqa çatdırmaq üçün qəzet və jurnallarda mübariz ruhlu məqalələrini nəşr etdirməyi əsas vasitə hesab edirdi. Bir çox maarifçilər, qələm-söz ustadları da xalqın gözünü açmaq, zülmə qarşı birliyə səsləmək üçün əsas vasitə kimi qəzet və jurnallardan istifadə edirdilər.

Xalqı milli oyanışa, işıqlı yolla addımlamağa çağıran "Molla Nəsrəddin" jurnalı əvəzedilməz bir məcmuə idi. Ö.F.Nemanzadə jurnalın həm əməkdaşı, həm də yaradıcılarından biri kimi tanınırdı. O, fikirlərini bəzən açıq, bəzən isə gizli şəkildə jurnalda çəkilən karikaturlar üzərinə qeyd olunan bir-neçə yazı ilə ifadə edirdi. Fikirlərin açıq-aşkar ifadəsi dövr üçün çətin proses olduğundan qələm-söz ustadı jurnalda "Lağlağı", "Ümidvar", "Cəhrəçi xala", "Dərdbənd" və s. kimi gizli imzalarla çıxış etmişdir.

Maarifçinin *"başını bir az yuxarı qaldır, bədəninə Allahın günəşi, havası dəysin, öz varlığının, öz bədəninin qiymətini bil"* şüarı bütün dövlər üçün də aktuallığını qoruyub saxlayır. Ziyalının inandığı tək şey cəmiyyəti qəflətdən qurtaracaq bir şey varsa, o da ancaq və ancaq məktəb, mədrəsə və mətbuatın çoxluğudur.

---

[8] Quliyeva, K.R. Xalqın milli oyanış ideyasının inkişafında görkəmli maarifpərvər Ö.F.Nemanzadənin rolu // Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutu, Elmi Əsərlər seriyası, – 2022. №1, –s. 67-70.

C.Məmmədquluzadə dostu, sirdaşı, qələm yoldaşı, istedadlı qələm sahibi adlandırdığı Ö.F.Nemanzadəni mətbuatın ehtiyac duyduğu böyük mütəfəkkir olaraq qiymətləndirmişdi. O, maarifçi ilə birlikdə bir neçə nəşriyyat orqanlarının, mətbəənin, jurnalın fəal üzvünə çevrilmişdi[9]. Ö.F.Nemanzadə xalqın milli şüurunun oyanışında müstəsna dərəcədə rolu olan "Qeyrət" mətbəəsinin açılmasında yaxından əməkdaşlıq etmişdi. Görkəmli ziyalı mətbəənin proqramı, niyyəti və təşkil olunma məqsədi ilə bağlı "Dəvət və təvəqqe" adlı məqaləsində ətraflı məlumat vermişdi. "Məqalədə elmsizlik, cahillik, camaatın bir neçə nəfərin əlində acizliyindən şikayətlənirdi. Müəllif bu acizliyin səbəbini cəhalətdə, öz xeyir və zərərini bilməməklə əlaqələndirirdi. Ona görə camaat bütün təhqirlərə dözür, boyunlarından asılan zülm boyunduruğundan xilas yolu axtarmaq yerinə, özləri üçün "rahat" həyatı seçirdilər.

Onun məqalələri, felyetonları bir-birinin ardınca əsərləri qələmə alması, qəzet və jurnalların çapı uğrunda davamlı mübarizəsi xalqı milli oyanışa çağırmağın aparıcı nidalarından biri idi. Ö.F.Nemanzadə dövrün həqiqətlərini göstərmək üçün son zamanlarda xatirələri üzərində çalışmışdır. Müəllif nəşrlərini, xatirələrini tamamlaya bilmədi. O, öz missiyasını şərəflə, əzmlə, inamla yerinə yetirməsinə baxmayaraq azad xalq, maarif işığında parlayan cəmiyyət ideyaları yarımçıq qaldı. Mübarizə dolu həyatı istirahət etmək üçün yollandığı dədə-baba yurdu olan Axıskada sonlanır. Rayon prokurorunun göstərişi ilə həbs olunur, həmin tarixdən 3 ay sonra isə güllələnir. Azərbaycanın bir çox görkəmli ziyalıları kimi görkəmli ədib repressiyanın günahsız qurbanlarından birinə çevrilir. Maarifpərvər ziyalının, dövrün bir çox dahi şəxsiyyətlərinin başlatdığı bu yol uğurla başa çatdırıldı. Hal-hazırda ölkəmiz müstəqil, gənclərimiz azad, təhsil, elm yolunda da nailiyyətlərimiz günü-gündən artır.

---

[9] Səfərov, R. Görkəmli ictimai-siyası xadim, ədib, publisist, maarifpərvər ziyalı Ömər Faiq Nemanzadənin mətbu fəaliyyəti haqqında: [Elektron resurs] / Azərbaycan respublikasının milli arxiv idarəsi. – Mart 10, 2023. URL:http://www.milliarxiv.gov.az/en/gorkemli-ictimai-siyasi-xadim-edib-publisist maarifperver-ziyali-omer-faiq-nemanzadenin-metbu-fealiyyeti-haqqinda-

Dissertasiyanın **“Ömər Faiq Nemanzadə dünyəvi təhsil və məktəb təliminin məzmunu haqqında”** adlı ikinci fəslinin ilk paraqrafı **“Ana dilinin tədrisi və onun saflığının qorunması Ö.F.Nemanzadənin pedaqoji jurnalistikasının əsası kimi”** adlanır.

Burada əsaslandırılır ki, Ömər Faiq Nemanzadə və dövrünün bir çox maarifçilərini narahat edən, düşündürən məsələlərdən biri də ana dilində dərslərin təşkili, dilin saflığının qorunması, ana dilində nəşrlərin sayının artırılması idi. Dövrə diqqət yetirsək ana dilinin bir sıra üslubları mövcud idi. Dövrün görkəmli ədibləri də bu üslubları nəzərə alaraq yazılarını qələmə alırdılar. Bu üslub formalarına əsasən bədii, publistik, elmi, rəsmi-epistolyar üslublar aid edilir. Dilin daha da inkişaf etdirilib, zənginləşdirilməsi baxımından Ö.F.Nemanzadə daha çox bədii, xüsusən də elmi-publisistik üslublara önəm verirdi. Qeyd olunan üslub formalarının düzgün seçilməsi də yazının, xüsusilə ana dilində yazmağın mahiyyətinin seçilməsinə xidmət edirdi.

Fədakar maarifçi ana dilini korlayan, ondan uzaqlaşıb yad sözlərdən istifadə edənlərə qarşı mübarizəsini jurnalda, qəzetlərdə əməkdaşlıq etdiyi müddətdə aparmış, yarı gizli, yarı açıq şəkildə onları ifşa etmiş, kinayəli, satirik obrazlar şəklində onlara gülmüşdür. O, həmçinin ana dilini bəyənməyən, dilə qarşı laqeyd yanaşanlara (yerli idarəçilər, din xadimləri, xaricdə təhsil alıb ölkəyə qayıdanda yarı başqa dildə, yarı ana dilində danışmağa cəhd göstərənlər nəzərdə tutulmuşdur- K.Q.), onun qiymətini alçaldan şəxslərə qarşı həmişə amansız mübarizə aparmışdır. Gözəl, istedada malik olan təhsil alanlarımızdan bu cür laqeyd münasibət gördükcə əzab çəkir, dilimizi korlayan xarici, yad sözlərdən istifadə etmələrinə təəssüf hissi ilə yanaşırdı. Xalqın çoxu türkcəyə, Azərbaycan türkcəsinə yad idi. Ö.F.Nemanzadənin qəti qənaəti belə idi ki, dilin doğmalaşdırılmasının başlıca təməli milli məktəblərimizdən qaynaqlanmalıdır[10].

---

[10] Quliyeva, K.R. Ö.F.Nemanzadə yaradıcılığında ana dili məsələsi // Azərbaycan Elm Mərkəzi: Qədim diyar beynəlxalq onlayn elmi jurnal, – 2023. c.5, №4, – s. 54-58.

Ziyalı ana dilini təbliğ etməklə, doğma dilin bütün gözəlliklərini, əzəmətini tərənnüm edirdi. Böyük maarifçi doğma dildə yazmağı, üslub və tərzlərindən istifadə etməyilə böyük fəxr hiss edirdi. Ö.F.Nemanzadə ölkəmizə yad dillərin təsir gücündən bəhs edərək yazırdı ki, *"ərəb və fars sözləri ilə qələmə alınan yazıları ədəbiyyat dili hesab etmək ədəbiyyatın nə demək olduğunu, mahiyyətini tam olaraq anlamamaq məharəti idi"*[11]. Pedaqoq göstərirdi ki, üzərindən əsrlər keçsə də ərəb və fars dilinin təsiri zəifləməmişdir. O, həmçinin digər xalqların öz dillərinə olan münasibəti ilə də müqayisələr aparmışdır. Zamanla neçə-neçə türk hökümətləri hakimiyyətə gəlsələr də, doğma türkcəyə tamlıqla geri dönüş edə bilmədilər, lakin Anadolu səlcuqlarının bir az türkcə yazmağa başlamasının sevindirici hal olduğunu vurğulayırdı. Anadolu səlcuqları həmçinin türk dilini rəsmi dil elan etmişdilər.

Ziyalı imla məsələsi üzərində xüsusilə dayanmışdı. O, ana dilinin özəyini təşkil edən imla yazmaq mədəniyyətinin zəifliyindən çox təəssüflənirdi. İmlalarımız o dövrdə müəyyən üsullarla ümumiləşdirilirdi. Təkcə müsəlman türkləri deyil, müsəlman aləmi də yazılı imladan xəbərsiz idi. Bu baxımdan müəllif əlifbanın dəyişdirilməsi, yenilənməsi tərəfdarı olduğunu qeyd edirdi. Əlifbanın dəyişdirilməsi ilə və onun doğma türkcəyə çevrilməsi nəticəsində sözlər daha sadə və anlaşıqlı olacaq idi. Köhnəlikdən uzaqlaşıb, keçmişdən əl çəkib parlaq fikirlərə, aydın danışığa malik şəxslər yetişdirməyin, gələcəyi fikirləşməyin vaxtı idi. Böyük ədib təəəssüflənirdi ki, dilimizə yad təsirlər olduqca güclü idi. Ərəb dilinin çətinliyi və xalq içərisində anlaşmazlıqların bundan qaynaqlandığını deyirdi. Maarifçi qarşımıza çıxan maneələri görüb, onlardan dərhal uzaqlaşmağımızın vacibliyindən bəhs edirdi.

Ö.F.Nemanzadə dilə kənar sözlərin daxil edilməsinin tamamilə əleyhinə deyildi. Maarifçi dilin öz-özlüyünə deyil, kənar sözlər hesabına zənginləşə biləcəyi qənaətində idi. Qayğıkeş pedaqoq sözləri necə gəldi yox, şüurlu şəkildə əlaqələndirərək daxil etməyi başlıca şərt hesab edirdi. Maarifçi bir neçə məqaləsində o dövrdə

---

[11] Nemanzadə, Ö. Milliləşmək // Azərbaycan. – 1919, 21 noyabr.

işlədilən çətin sözlərə yer vermişdir. Müəllif o çətin sözlərin doğma türkcə də qarşılığının daha sadə anlaşıqlı olması məsələsinə də toxunmuşdu.

Ö.F.Nemanzadə irsinə diqqət yetirsək, onun məqalə və felyetonlarının ana xəttini məhz ana dili məsələsi təşkil etmişdir. Yaradıcılığının əsasını ana dilində, doğma türkcə də danışmaq, sadə və anlaşıqlı dildə yazmaq, dilə əngəl törədən sözlərdən uzaqlaşmaq və s. kimi məsələlər təşkil etmişdir. "K və G hərfləri", "Dilimiz və imlamız", "Dəvət", "Yazımız, dilimiz, ikinci ilimiz" və s. başlıqlı məqalələri də buna bariz nümunədir. O, xüsusilə "Dilimiz və imlamız" adlı məqaləsində dilin insan həyatına təsir gücündən, mahiyyətindən bəhs etmişdir. Buna görə də gənc yazıçıları, dövrün oxumuş söz-qələm sahiblərini doğma türkcədə yazmağa dəvət edirdi.

Ö.F.Nemanzadə yaradıcılığının əsasını ustalıqla istifadə etdiyi qələmi təşkil edirdi. O, elmin bütün sahələrinə toxunur, münasibət bildirirdi. Müəllifin xüsusilə dil məsələsi qeyd etdiyi kimi yaralı yerlərimizdən biri idi. Bu yaranı sağaltmaq, qarışıqlığı sadələşdirmək, aydınlaşdırmaq, yoluna qoymaq Ömər Faiq Nemanzadə ilə yanaşı bir çox mütəfəkkirin, ziyalının üzərinə bir öhdəlik kimi düşmüşdü. Görkəmli pedaqoqlarımız bu vəzifə, öhdəlik uğrunda öz canları bahasına dilimizin zənginləşdirilməsi üçün bu yolda mübarizəni əzmlə, qürurla davam etdirmişdilər.

XIX əsrin sonu XX əsrin əvvəllərində xalqın işıqlığa çıxması, yeni fikirlərin oyadılmasının təməlini məktəb təhsilinin yeniləşməsi və islahatların aparılması prosesləri təşkil edirdi. Həmin məsələlər fəslin **"Ö.F.Nemanzadənin yaradıcılığında dünyəvi məktəb və təhsilin məzmununun yeniləşdirilməsi problemi"** adlı ikinci paraqrafında öz əksini tapıb.

Ö.F.Nemanzadənin məktəblər, onların məzmunu, yeniləşdirilməsi, yeni dərsliklərin hazırlanması haqqında pedaqoji görüşləri olduqca əhəmiyyətlidir. Görkəmli ədibin istər müxtəlif məzmunlu məqalələri, istərsə də feletonları canından artıq üstün tutduğu xalqın mədəni inkişafına və mədəni tərəqqisi uğrunda mübarizəyə həsr edilmişdi. Ona görə xalqı gerilikdən, qəflət yuxusundan, cəhalətdən oyadacaq bir qüvvə varsa, o da maarifdir.

Görkəmli ziyalı milli məktəb, milli təhsil sistemi tərəfdarı idi. Özünün təsis etdiyi məktəbləri də bu əsasda irəlilətmək üçün çalışırdı. O, əlbəttə heç bir sistemin özü-özlüyündə mövcud olmayacağını bilirdi. Digər xalqların təcrübəsinə əsaslanmağı, yeniliklər etməyi, bununla da təhsil sisteminin məzmununda dəyişikliklərə getməyi vacib hesab edirdi. Maarifçi dünya xalqlarının təcrübəsinə əsaslanan milli məktəb, təlim-tərbiyə sistemi yolunda bir çox işlər görməyə başlamışdı.

Ö.F.Nemanzadə ilk növbədə təhsilin məzmunun yeniləşdirilməsi və müəllim kadrlarının hazırlığı işində hərəkətə keçən fəal üzvlərdən birinə çevrildi. Pedaqoji fəaliyyətin əsas simalarından biri olan müəllimlərin gənc nəsillərin təlim və tərbiyə olunması kimi məsul vəzifəni şərəflə yerinə yetirməsi əsas məsələlərdəndir[12]. O, təhsil sahəsinin inkişaf etdirilməsi üçün bir sıra məsələlərin tam şəkildə həyata keçirilməsi tərəfdarı idi. Bunlara məktəb təhsilində pedaqoji heyətin peşəkar hazırlığı, dərsdə və heyət arasında motivasiyanın yaradılması, təşkil olunan məktəblərin yararlı hala gətirilməsi və istifadəsi, maddi-texniki bazanın yaxşılaşdırılması, ana dilində tədris materiallarına üstünlük verilməsi, təhsil alanların bilikləri öyrənmə qabiliyyətlərinin artırılması, keçirilən dərslərin keyfiyyətinin artırılması, məktəbi bitirənlərdə xeyriyyəçilik, vətənpərvərlik, idarəçilik potensialının formalaşdırılması və s. daxil idi. Onun planlaşdırdığı məktəb və təhsil sistemi bu əsasda qurulsa, məzmunda yeniliklər edilsə, sürətli inkişafın olması qaçınılmaz idi. Bu problem təkcə Ö.F.Nemanzadə dövrünün yox, müasir dövrün də vacib tələblər sisteminə daxildir.

Pedaqoq təhsil sistemindəki dəyişikliklərlə yanaşı müəllim kadr hazırlığı işinə də diqqət yetirmişdi. O, Şəkidə, Şamaxıda, Gəncədə müəllim kimi çalışmış, fəaliyyəti göstərdiyi müddətdə məktəblərdə din dərslərindən daha çox dünyəvi dərslərin tədrisinə üstünlük vermişdir. Müəllifin əsas müəllimlik fəaliyyəti İstanbuldakı

---

[12] Quliyeva, K.R. Ö.F.Nemanzadə təhsilin məzmunun yeniləşdirilməsi haqqında fikirləri // Karabakh III. İnternational Congress of modern studies in Social Sciences and Humanities. Year of Shusha-2022, – Bakı: İKSAD global, – 7-8 iyun, – 2022, – s. 57-60.

fəaliyyətindən sonra başlayır. Doğma yurda qayıdan ziyalı kiçik məktəb açmaq istəyir. Yerli idarəçilərin maneələri ilə qarşılaşdığından məktəbi aça bilmir. Maarifçilik hərəkatını davam etdirmək, elm nuru ilə insanları işıqlandırmaq üçün başqa şəhərlərə getməli olur. Şəhərdə məktəb açmaq üçün hökümətdən icazə alır və Qafqazda ilk dəfə olaraq türk məktəbi açılır. Açılan məktəb ölkənin digər yerlərin də maarifçilik hərəkatı üçün əvəzedilməz rol oynayır.

Ö.F.Nemanzadə ömrünün təxminən 10 ilini maarif, elm, müəllim kadr hazırlığı işinə həsr etmişdi. O, xalqını sevən, ana dilinə üstünlük verilməsi üçün çalışan görkəmli maarifçi, pedaqoq, ziyalı, əsl müəllim idi. Böyük ədəbiyyatşünas bir çox vəzifə də çalışsa da, müqəddəs saydığı müəllimlikdən əl çəkməmiş, bir ömür fəaliyyəti məktəblə bağlı olmuşdur. Millətin maariflənməsi üçün təkcə gündüz deyil, gecə belə çalışmağın fərz olduğunu yazırdı. Ziyalının maarifçiliklə bağlı fikirləri müasir dövrlə səsləşir, tamamilə üst-üstə düşür. O, maarif sahəsi, güclü məktəb sistemi, təhsili olan xalqın yenilməz bir qüvvə olduğunun fərqinə varmağa çağırırdı. Bu reallığı dərk etmək və tətbiq etmək bacarığını uşaqlarda kiçik yaşlarından və sonrakı dövrlərdə də formalaşdırmağın vacibliyindən söz açırdı.

Deyilənləri yekunlaşdıraraq belə bir nəticəyə gələ bilərik ki, Ö.F.Nemanzadə bu kimi proseslərin tam həyata keçirilə bilməsində xalqın birlik olmasını başlıca şərt hesab edir, ildə bir neçə uşağın pulsuz oxudulmasında da dəstək verməyin vacibliyindən yazırdı. Maarifçi haqlı olaraq bu yolda xalqı alışdırmalı, təşviq etməli və məktəbləri istiqamətləndirməli olduğumuzu deyirdi.

Görkəmli maarifçi xalqının, Qafqazın türk əhalisinin mənafeyini müdafiə etmiş, onun maariflənməsi və firəvanlığı naminə həyatını təhlükəyə atmışdır[13]. Sevindirici haldır ki, Ö.F.Nemanzadənin fikirləri, sözləri, ideyaları sadəcə kağızda qalmadı. Ölkəmiz elm, təhsil sahəsində öz sözünü demiş və deməyə

---

[13] Алиев, И. В Азербайджане отметят 150-летний юбилей Омара Фаика Неманзаде: [Электронный ресурс] / Баку, – Октября 3, 2022. URL:https://report.az/ru/vnutrennyaya-politika/v-azerbajdzhane-otmetyat-150-letnij-yubilej-omara-faika-nemanzade/

davam edir. Təhsil, elm sahəsindəki nailiyyətlər, görülən işlər ölkəmizi daha da yüksək pilləyə qaldırır.

Təhsilin ölkənin aparıcı göstəricilərindən biri olduğunun üzərində dayanan, bu yolda mühüm işlər görən Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu bu yolu cənab prezident İlham Əliyev uğurla davam etdirir. Ölkəmiz elm, təhsil sahəsində bir çox dünya ölkələri cərgəsində dayanır. Gənc tədqiqatçılar, maarifçilər üçün yeni imkanlar açılır, şərait yaradılır.

Fəslin **“Qadın təhsili və qadın azadlığı hərəkatının təbliği və inkişafında Ö.F.Nemanzadənin rolu”** adlı sonuncu paraqrafında qadınların təhsilə cəlb edilməsi, onların cəmiyyətə çıxışları əks etdirilir. Dövrün bir çox görkəmli şəxsiyyətlərinin istər yaradıcılıqların da, istərsə çıxışlarında qadınlara azadlıq verilməsi, təhsilə cəlb edilməsi, hüquqlarının əllərindən alınmaması ilə bağlı mübarizələri öz əksini tapmışdır. Görkəmli yazarın yaradıcılığında qadın azadlığı, qadın təhsili məsələlərinə diqqət yetirməsi xüsusi əhəmiyyət kəsb edir. Publisistimiz qadın azadlığını, xalqın iqtisadi-siyasi azadlığını və ailə məişət münasibətlərini ictimai münasibətlərin tərkib hissəsi hesab edirdi[14]. Maarifçi yazılarında bəzən gizli, bəzən də açıq şəkildə qızların təhsil alması ilə bağlı problemi qabartmış və “Molla Nəsrəddin” jurnalının bir neçə nömrəsində dərc etdirmişdir. Jurnalda məsələ ilə bağlı karikaturlar çəkilmiş, yumor hissi ilə xalqa çatdırılmışdır. Dünya ölkələrinin mənfi adətlərinə diqqət yetirmək yerinə qadınlara olan münasibətlərə diqqət yetirib, düşüncələrin dəyişmənin vaxtı gəlib çatdığını deyirdi.

Ö.F.Nemanzadə qadınların təhsili ilə yanaşı onların cəmiyyətdəki mövqeylərlə bağlı bir çox məsələləri tədqiq etmişdir. Maarifçini hər zaman qızların kiçik yaşlarından çarşaflara bürünmələri, ailələri tərəfindən evliliyə yönləndirmələri və elm-irfandan uzaqlaşdırmaları narahat etmişdir. Ömər Faiq Nemanzadə “Qız məktəbi” felyetonunda qadınların təhsili məsələsinə xüsusilə

[14] Ömərov, V. Ö.F.Nemanzadə qadın hüquqları haqqında // Səs. – 2018, 12 oktyabr. – s. 15.

toxunmuşdur[15]. O, qadınlarla bağlı fikirlərinə görə din xadimləri tərəfindən kəskin etirazlarla qarşılaşırdı. Maarifçi üzünü örtənləri namuslu adlandırıb, digərlərinə çirkab atmağın doğru olmaması qənaətində idi. Hicabı namus qoruyucusu deyil, qadın üçün həbsxana kimi qiymətləndirirdi. Ziyalı özlərini başbilən adlandıran şəxsləri sərt şəkildə tənqid edir, *"onların günahı nədir ki, qatmışıq dustaqxanalara, özümüzə qul, kəniz, aşpaz, fəhlə etmişik"* kimi sözlərlə açıq-aşkar onlara müraciət edirdi.

Görkəmli pedaqoqun görmək istədiyi qadınlar elm və təhsil yolunda irəliləyən, millətinə fayda verən, öz haqq və hüquqlarını bilən və azadlıqları üçün daim mübarizə aparan qadınlar idi. Fədakar maarifçi yaradıcılığı boyunca qadınlara münasibətlərin dəyişilməsi, təhsilə cəlb edilmələri üçün daim mübarizə aparmış və xalqın bütün nümayəndələrini elmə, təhsilə səsləmişdir.

Tədqiqatla bağlı aşağıdakı **nəticələrə** gəlinmişdir:

1. Azərbaycanın qabaqcıl demokratik ziyalılarından biri kimi görkəmli publisist, ictimai xadimin gəldiyi qənaət belə idi ki, xalqın o dövrkü ağır vəziyyətinin başlıca səbəbi mövhumatçı düşüncə burulğanına düşməsi, vaxtı ötmüş adət-ənənələrin əsiri olması ilə bağlıdır.

Ö.F.Nemanzadə mövhumatı, xurafatı, cahil hərəkətləri, insanların müasir həyat tərzində yaşamaq istəyinə zərbə vuran adət-ənənələri kəskin, çox sərt şəkildə tənqid və ifşa edir, dövrünün əqidə və imanlarını məqbul saymayan publisist gənclərə islam dinini əsaslı, dərindən öyrənməyi vacib hesab etmiş, dinimizin ifrat dərəcədə tənqidindən uzaq olmağı tövsiyyə etmişdir.

2. Göstərilmişdir ki, mövhumat və xurafatın, fanatik düşüncə tərzinin qarşısının alınması elmin, savadın mənimsənilməsi şəxsiyyətin yaradıcı inkişafını əhatə edən özünü təkmilləşdirilməsi yolu ilə mümkün ola bilər.

Demokratik ziyalılar, qabaqcıl müəllimlər gənc nəsildə inkişafa, özünü təkmilləşdirməyə istiqamət verməli, öz vətəninə

---

[15] Quliyeva, K.R. Ö.F.Nemanzadə və XIX-XX əsr maarifpərvərlərin qadın təhsilinə olan münasibət haqqında fikirləri // – Naxçıvan: Naxçıvan Universiteti, Elmi əsərlər seriyası, – 2023. №2, – s. 226-229.

məhəbbət, milli mədəniyyətinə, ədəbiyyatına, dilinə, adət-ənənələrinə sadiqlik və hörmət hissinin aşılanmasına, insana, insanlığa düzgün münasibət nümayiş etdirməsinə kömək etməlidirlər.

3. Azərbaycan türklərinin milli oyanış hərəkatının Ö.F.Nemanzadə publisistikasının çox mühüm həlqəsi olması fikri əsaslandırılmışdır.

Milli oyanış elm və təhsilin sayəsində mümkündür. Xalqı ictimai bəlalardan qurtarmağın effektiv yolu kimi mətbuatın rolu artır, milli şüurun formalaşmasında yüksək mövqeyə malik olur. Milli oyanış xalqın azadlığı, dirçəlişi və öz xoşbəxtliyini təmin etmək imkanıdır və Ömər Faiq Nemanzadənin məqalə və felyatonları xalqı milli oyanışa çağrış ruhu ilə zəngin idi.

4. Milli mətbuatımızın nadir inciləri “Əkinçi” və “Şərqi-Rus”dan sonra “Molla Nəsrəddin” jurnalı XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi fikrinin öncül nümunələrindən biri olmaqla xalqın həyatının və mənəviyyatının güzgüsü olması öz təsdiqini tapmışdır.

Jurnal həm yayılma arealına, həm də digər dərgilərə nisbətən geniş oxucu auditoriyasına malik olduğuna görə bu gün də əhəmiyyətini itirməyən mənəvi dirilik abidəsi, yaxşı düşüncə məhsuludu. Jurnalın başlıca problematikası xalqı oyatmaq, onu zamana görə yaşamağa hazırlamaq idisə, bu məqsədin həyata keçirilməsində başlıca vasitə yeni pedaqoji ideyaların, müasir təhsilin həyata keçirilməsi hesab olunurdu.

5. Jurnal iki böyük ziyalının— Ömər Faiq Nemanzadə ilə yanaşı Cəlil Məmmədquluzadənin, eləcə də, qabaqcıl demokratik ziyalıların zəhməti, gərgin səyləri, çətinliklərə qarşı mübarizə əzmi sayəsində meydana gəlmiş və yeni pedaqoji ideyaların formalaşması və tətbiqinə əhəmiyyətli təsir göstərmişdir.

Bu dövrdə Azərbaycanda yeni pedaqoji ideyaların əhəmiyyətli dərəcədə yüksəlişi, təhsilin yeni əsasda qurulması maarifçi-mütəfəkkirlərin, nəzəriyyəçi-praktik pedaqoqların üzərinə düşürdü ki, belə bir sosial tələbin aparıcı simalarından biri də türk qövmünün birliyinin təcəssümü sayıla biləcək Ö.F.Nemanzadə idi.

6. Ö.F.Nemanzadə dövrünün təhsil və pedaqoji fikrinin elə bir əhəmiyyətli problemi yoxdur ki, ona müraciət edərək özünün münasibət və yanaşmalarını bildirməsin.

Böyük ziyalı şagirdlərin Azərbaycan dilinin tədrisinə cəlb edilməsi, öyrənilən materiala şüurlu yanaşma nümayiş etdirilməsi, əzbər öyrənmə və sxolastikadan imtina olunması kimi məsələlərə xüsusi diqqət yetirir, ana dilində açılmış məktəblər, burada yeni metod və priyomlarla dünyəvi biliklərin verilməsi də görkəmli ziyalını məşğul edirdi. Maraqlıdır ki, Ömər Faiq Nemanzadə Azərbaycan dilini dövrün dilçilik elminin nailiyyətləri əsasında öyrənməyə çalışmış və müəyyən mənada buna nail ola bilmişdir.

7. Ö.F.Nemanzadənin dünyəvi məktəblərin yaradılması və təhsilin məzmununun yeniləşdirilməsi haqqında fikirləri publisistikasındakı pedaqoji baxışlarının əsasını təşkil edir.

O, xalqı gerilikdən, qəflətdən qurtarmağın yeganə yolu kimi məktəbin yeniləşməsində, mətbuatın əhali arasında yayılmasında, milli məktəb, milli təhsil sisteminin özündə müasir elmi bilikləri əks etdirməsində görürdü. Milli məktəb ölkənin milli kaloritinə, ictimai və iqtisadi quruluşuna müvafiq olmaqla yanaşı, dünya təhsil sistemlərinin mahiyyətinə, məzmun xüsusiyyətlərinə uyğun gəlməli və milli təhsil sistemi məktəbin məzmunca yeniləşdirilməsi, yeni dərsliklərin və yeni baxışlara malik müəllimlərin hazırlanması, yaxşı adət və tərbiyə işinin həyata keçirilməsinə istiqamətlənməli, ibtidai, orta və peşə təhsilinin inkişafına, bütövlükdə məktəb şəbəkəsinin genişlənməsinə zəmin yaratmalı idi.

8. Görkəmli maarifçi-pedaqoq israrla qeyd edirdi ki, müəllimlər böyüyən nəslin təlim və tərbiyə olunması kimi məsul vəzifəni şərəflə yerinə yetirməyə borcludurlar. Müəllimlər məktəb şəbəkəsinin genişləndirilməsini, bəşəri dəyərlərə əsaslanan müasir təhsilin tətbiq edilməsini, öz ana dilində təhsilli gənclərin yetişdirilməsini, doğma dilin saflığını qoruyub saxlamağı və inkişaf etdirməyi pedaqoji fəaliyyətinin əsas məqsədi bilməlidirlər.

9. Müəyyənləşdirilmişdir ki, Ö.F.Nemanzadə yaradıcılığında, mütərəqqi-demokratik dünyagörüşündə qadın məsələsinə, qadının cəmiyyətdə və ailədəki mövqeyinə böyük diqqət yetirirdi.

“Hər millətin tərəqqisi qadınlar ilə ölçülməlidir” şüarı tanınmış maarifçinin şüarı idi. O, kişilər kimi qadınların da maarifləndirilməsi və bilik səviyyəsinin artırılması, onlar üçün ixtisaslaşdırılmış məktəblərin açılması və onlarda təvazökarlıq, fəzilət, mənəvi saflıq kimi keyfiyyətlərin aşılanmasını vacib saymış, onlarda yüksək mədəniyyət formalaşdırmağın zəruriliyini göstərmişdir.

10. XX əsrin əvvəllərində Ö.F.Nemanzadənin dövrünün təhsili və pedaqoji nəzəriyyəsi haqqında baxışları Azərbaycanda məktəblərin təşkili üçün nümunə oldu. Onu pedaqoji yaradıcılığı Azərbaycan xalqının milli özünüdərkinin inkişafında mühüm amil rolunu oynamışdır.

Yuxarıda qeyd olunan nəticələr əsasında aşağıdakı təkliflər irəli sürülür:

- Ö.F.Nemanzadənin pedaqoji irsinin öyrənilməsi baxımından monoqrafiya və dərs vəsaitlərinin yazılması;
- Ö.F.Nemanzadənin pedaqoji fəaliyyətinin ali təhsil müəssisələrində öyrənilməsi;
- Ö.F.Nemanzadənin irsinin tanıdılması məqsədilə pedaqoji fəaliyyət göstərdiyi bölgələrdəki maarif ocaqlarında adının əbədiləşdirilməsi;
- Pedaqoji fəaliyyət göstərdiyi bölgələrdə Ö.F.Nemanzadənin xatirə abidəsinin ucaldılması;
- Ümumtəhsil məktəblərinin “Ədəbiyyat” kitabında Ö.F.Nemanzadənin həyat və yaradıcılığı haqqında geniş məlumatların əlavə edilməsi.

**Dissertasiyanın əsas məzmunu müəllifin dərc edilmiş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Quliyeva, K.R. Ömər Faiq Nemanzadənin milli məktəblər haqqında fikirləri // Naxçıvan: Naxçıvan Dövlət Universiteti, Elmi Əsərlər Humanitar Elmlər seriyası, – 2021. №1 (110), –s. 147-150.

2. Quliyeva, K.R. Maarifpərvər, ziyalı Ömər Faiq Nemanzadənin “Molla nəsrəddin” jurnalında ictimai-pedaqoji fəaliyyəti // 3.Uluslararası 29 ekim bilimsel araştırmalar sempozyumu– Ankara, Türkiye:– 29 ekim, – 2021, – s.329-333.

3. Quliyeva, K.R. Xalqın milli oyanış ideyasının inkişafında görkəmli maarifpərvər Ö.F.Nemanzadənin rolu // Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutu, Elmi Əsərlər seriyası, – 2022. №1, – s. 67-70.
4. Quliyeva, K.R. Ö.F.Nemanzadə mövhumatçılığın tənqidi haqqında / K.R.Quliyeva, E.Q.İsmayılova // Naxçıvan: Naxçıvan Dövlət Universiteti, Elmi Əsərlər: Humanitar elmlər seriyası, – 2022. c.114, №1, – s. 93-96.
5. Quliyeva, K.R. Ö.F.Nemanzadə təhsilin məzmunun yeniləşdirilməsi haqqında fikirləri // Karabakh III. İnternational Congress of modern studies in Social Sciences and Humanities. Year of Shusha-2022, – Bakı: İKSAD global, – 7-8 iyun, – 2022, – s. 57-60.
6. Guliyeva, K.R. Omar Faik Nemanzadeh Education Problem and Professional Competency of a Teacher // Croatia: Journal of Corporate Governance, Insurance, and Risk Management, - 2022. v. 9, – s. 374-380.
7. Quliyeva, K.R. Ö.F.Nemanzadə və XIX-XX əsr maarifpərvərlərin qadın təhsilinə olan münasibət haqqında fikirləri // – Naxçıvan: Naxçıvan Universiteti, Elmi əsərlər seriyası, – 2023. №2, – s. 226-229.
8. Quliyeva, K.R. Ömər Faiq Nemanzadənin Şəkidə pedaqoji fəaliyyəti // – Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutu, Elmi əsərlər seriyası, – 2023. №1 (71), – s. 65-67.
9. Quliyeva, K.R., Ö.F.Nemanzadə yaradıcılığında ana dili məsələsi // Azərbaycan Elm Mərkəzi: Qədim diyar beynəlxalq onlayn elmi jurnal, – 2023. c.5, №4, – s. 54-58.
10. Quliyeva, K.R. XIX-XX əsrlərdə Azərbaycanda elm və təhsilin inkişafinda görkəmli pedaqoq Ömər Faiq Nemanzadənin rolu // “Azərbaycanda dövlət müstəqilliyinin bərpasi və ölkənin siyasi, sosial-iqtisadi, mədəni inkişafi” adlı beynəlxalq elmi konfrans. Sumqayıt Dövlət Universiteti:– 13-14 aprel, – 2023, – s.426-427.
11. Quliyeva, K.R. Ömər Faiq Nemanzadə Azərbaycan maarifçilik hərəkatinin görkəmli nümayəndələrindən biri kimi // “Təhsil, tədqiqat və innovasiyanin vəhdəti” mövzusunda Doktorant Və Magistrantlarin V Respublika elmi konfransı. Naxçıvan Müəllimlər İnstitutu:– 28 aprel, – 2023, – s.241-243.

12. Quliyeva, K.R. Azərbaycanda məktəb və pedaqoji fikrin inkişafinda Ömər Faiq Nemanzadənin rolu // Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş “Təhsildə inkişaf mərhələləri: rəqəmsallaşdırma və gələcək perspektivlər” mövzusunda I Respublika elmi konfransı. Naxçıvan Dövlət Universiteti:– 04-05 may, – 2023, – s.105-108.

13. Quliyeva, K.R. AXC dövründə Ömər Faiq Nemanzadənin elmi-publisistik fəaliyyəti // Xudafərin Beynəlxalq Elmi Araşdırmalar Konfransı. Bakı:– 24 fevral, – 2024, – s.29-34.

14. Quliyeva, K.R. Azerbaycan'ın Milli Ruhlu Aydını Ömer Faig Numanzade // Hagıa Sophıa 7th ınternatıonal conference on multıdıscıplınary scıentıfıc studıes. İstanbul, Turkey:– 03-05 february, – 2024, – s.469-471

.



Dissertasiyanın müdafiəsi 25 aprel 2025-ci il tarixində 12 30 saat-da Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 240 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Naxçıvan MR, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, AZ7003, Naxçıvan Müəllimlər İnstitutu.

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Naxçıvan Müəllimlər İnstitutunun rəsmi internet saytında (www.nmi.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 17 mart 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.03.2025
Kağızın formatı: 60/84, 16/1
Həcm: 36875
Tiraj: 100